# Turizm sektoru canlanır...

*Yeganə BAYRAMOVA*

Ölkəmiz turizmin inkişafı üçün bütün mövcud imkanlardan istifadə edir. Azərbaycan turizm baxımından kifayət qədər geniş perspektivlərə malik ölkə hesab olunur. Turizmin inkişafı üçün kifayət qədər təbii ehtiyatlara, maddi-texniki bazaya malik ölkələr sırasındayıq. Sevindirici haldır ki, regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları çərçivəsində bölgələrimizdə yaradılan infrastruktur, həmçinin yeni hotel və digər istirahət mərkəzləri şəhər və rayonlarımıza olan marağı artırıb. Belə ki, ölkəmizə gələnlər tur paket seçərkən onun bir neçə gününü Bakıya, qalanını isə bölgələrə sərf edirlər. Bu, həm də o deməkdir ki, iqtisadiyyatın ən gəlirli sahələrindən olan turizmin inkişafı son illərdə bölgələrdə də diqqət mərkəzindədir və bu istiqamətdə böyük uğurlar əldə edilib. Xaçmaz, Qəbələ, İsmayıllı, Şamaxı, Quba, Qusar kimi rayonlarımızda istirahət edənlərin sayının artması Azərbaycan turizminə olan diqqətin göstəricisidir.

**23 faiz artım**

Dövlət Statistika Komitəsinin (DSK) məlumatına görə, Azərbaycana turist axını 23 faiz artıb. Məlumdur ki, hər il yay mövsümündə Azərbaycanda turizm sektorunda canlanma müşahidə edilir. 2020-ci ildə başlayan koronavirus pandemiyası səbəbindən bu sektorda zəifləmə olmuşdu. Artıq pandemiya səngiyib. Bu il daha çox turist axını olacağını düşünənlər var.

**Yerli turistlər**

Ölkəmizdə turizm sektorundakı mövcud durum barədə "Yeni Azərbaycan"a danışan turizm üzrə ekspert Ramin Zamanov bildirib ki, hazırda yerli əhali daha çox ölkə daxilində istirahət etməyə üstünlük verir. Xüsusilə bayram günlərində rayonlara axın daha çoxdu və rayonlardakı qiymətlər adi günlərə nisbətən bayramlarda bir az fərqli olur: "Əsasən Quba, Şəki, Balakən, Qax, eyni zamanda Cənub bölgələrinə səyahət edənlər çoxalır. Kimlərsə fərdi evlərdə ödənişli əsaslarla qonaq qismində qalırlarsa, qiymətlər adətən 50 manatdan, 200-250 manata qədər dəyişir".



## Daha çox hansı bölgələrə maraq var?

**60-70 manatdan başlayan qiymətlər**

Ekspertin sözlərinə görə, hoteldə qalanların sayı da az deyil, hətta bəzi hallarda yer tapmaq da çətin olur: "Qiymətlər isə 60-70 manatdan, 300-350 manata qədər dəyişir. Təbii ki, bu da hotelin komforta, ulduz klassına və yerləşdiyi məkana görə təyin edilir. Əvvəlki illərə nisbətən evlərdə qalan insanların sayı daha çoxdur. Bunun da kənd turizminə müsbət mənada böyük təsirləri var. Lakin yaxşı olardı ki, həmin kənddəki ev sahibləri evlərə daha çox diqqət göstərib, müəyyən xidmətlər əlavə edərdilər. Məsələn, təmizlik və yaxud qidalanma ilə bağlı xidmətləri qeyd edə bilərik. Düşünürəm ki, növbəti illərdə artıq bu istiqamətdə olan tələblər müvafiq təkliflə üst-üstə düşə biləcək".

**Xarici turistləri cəlb edən nədir?**

R.Zamanov qeyd edib ki, bu il ölkəmizə gələn turistlərin sayında xeyli artım müşahidə olunur: "Azərbaycan digər ölkələrdən, o cümlədən Avropadan turistlərin maraq göstərdiyi səyahət istiqamətləri sırasındadır. Demək olar ki, bu mövsümdə Bakıda və regionlarımızda olan bütün hotellərdə sıxlıq müşahidə olunur. Hazırda da xaricdən turist axını davam edir. Xarici qonaqlar Bakı ilə yanaşı, ayrı-ayrı bölgələrə - Gəncə, Göygöl, Qəbələ, Şəki, İsmayıllı, Quba, Qax, Xaçmaz, Balakənə xüsusi maraq göstərirlər. Ölkəmizin təbiəti, mədəniyyəti, adət-ənənəsi və mətbəxi onları özünə cəlb edir".

Yeni Azərbaycan.- 2023.- 26 iyun.- S.7.